# Qəlbi duyğulandıran sənətkar



Əcdadlarının sədası ilə zaman məkanında səyahətə çıxan sənətkar Şərqdən Qərbə, Qərbdən də Şərqə doğru gələrək insanlar, onların adət və ənənələri arasında "körpü" yaradır. Əsrlərdən bəri müdriklərin "ünsiyyət" adlandırdığı və qurduğu həmin möhtəşəm Üzeyir bəydən, Qara müəllimdən gələn körpünü... Müasir texnologiyaların inkişafı dövründə də insanların "Mən kiməm?", "Bu dünyaya nə məqsədlə gəlmişəm?" suallarına cavab axtardığı zamanda bu ünsiyyətə hava və su kimi böyük ehtiyac duyulur...

İlk addımı atıb bəşəriyyətlə dialoqa girərək insanları sülhə, bir-birlərini başa düşməyə çağıran, onlara həm ifası, həm yazdığı əsərləri ilə "Beşiyinin boş" qalmaması üçün "Oyan!" - deyə hayqıran, dünyada baş verən hadisələrə, fəlakətlərə, zülmə və haqsızlığa qarşı etiraz səsini ucaldıb, "İntizar"la gözləyən, bir ana kimi bir an acıyaraq içində "Mərsiyə"sini söyləyib Nəsiminin sözlərilə cavab verir:

*Ey Nəsimi, çünki iş təqdir əlindən işlənir,*
*Fariqəm dünyadəvü üqbadə qəmdən, biqəməm.*

Amma o, dayanmır, çünki xeyrin şərlə mübarizəsi əbədidir. Güc almaq üçün kökləndiyi milli dəyərlərdən, Muğam adlanan böyük dühadan mənəvi qida alıb bu Sevgini - "Aşk havası"nı, "Habil sayağı", "Muğam sayağı" dilində insanlara aşılayır. Tam "Dərviş"i kimi...

*Mən ki, dərvişəm, fəqirəm, padişahi-aləməm,*
*Ruhi-birəngəm, əgərçi rəngə girdim, adəməm.*

O həmin Dərvişdir ki, zaman məkanında "Əbədiyyət- adlanan səyahətə" çıxaraq insan "simlərinə", tellərinə toxunur. Onun bu simi- violonçelin simidir... Violonçelin kamança dilində insanlığa çağırışıdır. O ruhdur, çəkisizlikdə muğamın səsidir... O, Qərblə Şərq arasında yaranan "körpüdür, bəlkə günəşin şüası ilə körpülərin "götürülməsidir"...

Müdriklər deyir: "Xarakter- insan taleyidir. Fikri "əkib" hərəkəti, onu "əkib" vərdişi, onu "əkib" xarakteri, sonra da taleyini "biçərsən".

Doğrudan da, onun xarakteri - onun taleyidir. Azərbaycan Bəstəkarlar İttifaqının sədri, respublikanın xalq artisti, UNESCO-nun "Sülh naminə incəsənət xadimi", "Şöhrət" ordeninə layiq görülən bəstəkar, pianoçu, dirijor, pedaqoq, ictimai xadim, professor, müasir ensiklopediyalarda dünyanın ən məşhur bəstəkarları arasında adı çəkilən Firəngiz Əlizadə insanların özlərinin qələbəyə inamını çox mühüm sayır: "Yaradıcı məqsədim dünyaya baxışlarımı, daim ümidlər və ümidsizliklər arasında çırpınan qəlbimin durumunu əks etdirən musiqi yaratmaqdır. Axı, musiqi faciədən danışanda da gözəllik daşıyıcısı olmalıdır... İnsanların özlərinin qələbəyə inanması çox mühümdür".

Müasir Azərbaycan musiqisinin görkəmli nümayəndələrindən olan Firəngiz Əlizadə hər zaman yenilik axtarışında olaraq eksperimentlər aparmağa heç zaman çəkinmir, bir ifaçı kimi də, bəstəkar kimi də. Onun bu xüsusiyyəti artıq tələbəlik illərindən, virtuoz pianoçu kimi həm müasir Azərbaycan, həm də müasir Avropa bəstəkarlarının fəal təbliğatçısı, paralel olaraq yeni yazı texnikalarını, üslublarını mənimsəyərək yazdığı əsərlərində özünü büruzə verirdi.

AMEA-nın müxbir üzvü, sənətşünaslıq doktoru, professor Rəna xanım Məmmədova Firəngiz Əlizadənin ilk böyük əsərinin- "Berqin xatirəsinə həsr olunan Sonata"nın (1976) premyerasını belə xatırlayır:

"Yaxşı yadımdadır, Ü.Hacıbəyov adına ADK-nın böyük zalında Azərbaycan bəstəkarlarının əsərləri ifa olunurdu. Həmin gün F.Əlizadənin "Sonata"sı müəllifin ifasında dinləyicilərə təqdim edilirdi. Son akkordlar səslənəndən sonra hamı üçün gözlənilməz bir hadisə baş verdi; dahi bəstəkarımız Q.Qarayev birdən sürətli addımlarla səhnəyə qalxıb ucadan dedi: "Baxın, budur əsl müasir musiqi". Sonra da Firəngizi qucaqlayıb öpdü. Həmin anlarda Qara müəllim uşaq kimi sevinirdi, çünki bir gənc bəstəkar kimi, öz övladı kimi Firəngizin xətrini çox istəyirdi. Zalda dinləyici çox idi, hamı bir nəfər kimi gənc bəstəkarı alqışlayırdı"...

Firəngiz xanım müəlliminə olan ehtiram hissini hər zaman böyük məhəbbətlə xatırlayır... Ümumiyyətlə, onun yaradıcılıq yolunda qarşısına çıxdığı şəxsiyyətləri - bəstəkarları, ifaçıları hörmət hissi ilə yad etmək Firəngiz Əlizadə üçün bəlkə də "Zikr"dir...

Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda ifa olunan F.Əlizadə musiqisi dünyanın ən möhtəşəm konsert salonlarında, teatr səhnələrində səslənərək minlərlə musiqisevərlərin böyük rəğbətini qazanmaqdadır. Bu şəhərlərin coğrafiyası olduqca genişdir- Mərsin, Ankara, İstanbul, Turin, Berlin, Lütsern, Nyu York, San Fransisko, Los Anceles, Çikaqo, San Diyeqo, Boston, Sietl, Bazel, Amsterdam, Bern, Pezaro, Roma, Sürix, Vyana, Zaltsburq, Bonn, Lion, Paris, Tokio, və s.

"Dərviş"in Şərqdən Qərbə və Qərbdən Şərqə gələrək qurduğu körpünü xatırladır...

Zəmanəmizin görkəmli musiqiçisinin genişmiqyaslı yaradıcılığını bir yazı həcmində açmaq təbii ki, qeyri-mümkündür. Bəstəkarın yaradıcılıq fəaliyyətində əlamətdar hadisələrdən biri kimi, vurğunu dinləyicilərin müzakirəsinə verilən violonçel ilə orkestr üçün konsert "Mərsiyə"nin təqdimatına həsr etmək istərdik. Azərbaycan incəsənətinin görkəmli nümayəndələri tərəfindən yüksək səviyyədə dəyərləndirilərək respublikanın Dövlət mükafatına təqdim olunması hamılıqla dəstəkləndi. Tədbir Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində (muzeyin təşkilatçısı, əməkdar mədəniyyət işçisi A.Bayramova) və Leopold və Mstislav Rastrapoviçlərin Ev-Muzeyində (muzeyin təşkilatçısı, əməkdar mədəniyyət işçisi Ş.Heydərova) keçirilərək sənədli xronika şəklində bəstəkarın yaradıcılığını, dünya şöhrətli musiqiçilərin ifalarında səslənən əsərlərin coğrafiyasını həyat səhifələri tək vərəqləyirdi.

"Firəngiz Əlizadə şübhəsiz ki, Qərbdə müasir klassik musiqi sahəsində olduqca böyük nailiyyətlər əldə edən, müsəlman dünyasının yeganə nümayəndəsi kimi dövrümüzün lider bəstəkarlarındandır. Onun parlaq, cəlbedici, ifadəli musiqisi Amerikadan Avstraliyayadək olan bütün kontinentlərdə Yo-YO Ma, Evelin Qlenni, Yulius Berger, İvan.Monugetti, D.Gerinqas səviyyəli məşhur ifaçıların; "Kronos Qvartet" (San-Fransisko), Collegium Novum (Sürix), Continium (Nyu York), Nieuw Ensemble (Amsterdam), Philharmonik Orhestra (London), "Berliner Philharmoniker" (Berlin), Ensemble Modern (Frankfurt) Resonanz Orhestra (Cologne), La Strimpellata (Bern), Esbyerq Ensemble (Kopenhagen) və b. dünya miqyasında ən nüfuzlu ansambllar tərəfindən ifa olunaraq Lütsern beynəlxalq festivalı (1999), Berlin İncəsənət Akademiyası (2000-2001), Bonn şəhərinin Beethoven-Hall Orhestra tərəfindən "composer-in-residence" - ölkənin rəsmi bəstəkarı fəxri titulu ilə təltif olunan ilk qadın-bəstəkarıdır" - A.Sikorski.

Daim öz əsərində ümumbəşəri mövzulara toxunaraq insanların diqqətini qlobal məsələlərə yönəltməyi bacaran Firəngiz Əlizadənin yaradıcılığının əsas ana xəttini canından artıq sevdiyi doğma Azərbaycanın, onun qədim ənənələrinin, mədəniyyətinin qorunub saxlanılması təşkil edir. Bu sevginin yaşantısını, onun vətənpərvərlik mövqeyini çoxlu sayda keçirilən layihələrində görürük.

Firəngiz xanımın dünyaya gəlişinin Respublika Günü ilə bir vaxta düşməsinin özü də rəmzi məna daşıyır.

Bəşəriyyətlə dialoqa girərək onları sülhə, bir-birlərini başa düşməyə çağıran, haqq səsini ucaldaraq, "Oyan!" - deyən Sənətkar - Firəngiz Əlizadə.

İnanırıq ki, onun əsərlərinin, gördüyü böyük işlərin sədası bundan sonra da dünyanın ən nüfuzlu konsert salonlarından gələcək. Bu işdə biz Sizə uğurlar, cansağlığı diləyirik.

**_Xatirə HƏSƏNZADƏ,_**
**_sənətşünaslıq üzrə fəlsəfə doktoru,_**
**_musiqişünas_**